AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 1 (1461), 12 - 18 yanvar 2021-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Vətən müharibəsində şəhid olan futbol ailəsi üzvlərinin sayı açıqlandı

AFFA-nın qeydiyyat sistemində müxtəlif vaxtlarda qeydiyyatdan keçmiş 191 nəfər 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qəhrəmancasına şəhid olub. Milli Assosiasiyanın rəsmi feysbuk səhifəsinə istinadən verilən xəbərə görə, onlardan 190 nəfəri oyunçu (müxtəlif liqalarda qeydiyyatdan keçən 64 nəfər, kütləvi futbolla bağlı layihələrdə 127 nəfər), biri isə məşqçi kimi sistemdə qeydiyyatda olub. Şəhidlərin ən gənci 2002-ci il, ən yaşlı olanı isə 1982-ci il təvəllüdlüdür.

2009-cu ildən bu günədək 212.816 şəxs AFFA-nın qeydiyyat sistemində qeydiyyata alınıb. Bu sistem futbolla məşğul olan şəxslərin - futbolçuların, məşqçilərin və digər texniki işçilərin - qeydiyyatını ehtiva edir.

Xatırladaq ki, şəhid olan mülki şəxslər arasında Azərbaycan futbol ailəsinin 13 yaşlı üzvü Şəhriyar Qurbanov da var.





## Cüdoçularımız Dohada "World Masters" turnirində iştirak edirlər

Dünən Qətərin paytaxtı Dohada cüdo üzrə "World Masters" turnirinə start verilib. Tokio-2020-yə Olimpiya lisenziya xalları verəcək yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayırlar. Ölkəmiz yarışda 7 (4 kişi, 3 qadın) cüdoçu ilə təmsil olunur. Kişilərin yarışında Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kq), Elmar Qasımov və Zelim Kotsoyev (100 kq), qadınların mübarizəsində isə Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq) və İrina Kindzerska (+78 kq) güclərini sınayacaqlar. Yanvarın 13-dək davam edəcək yarışda 69 ölkədən 400-ə yaxın cüdoçu mübarizə aparacaq.



Beynəlxalq Atıcılıq Federasiyası (İSSF) 2021-ci ilin yarışlarının təqvimini təsdiqləyib.

## Azərbaycan növbəti dəfə Dünya Kubokuna ev sahibliyi edəcək

Azərbaycan növbəti dəfə Dünya Kubokuna ev sahibliyi edəcək. Bakıda güllə və stend atıcılığı üzrə mərhələ yarışı təşkil olunacaq. Turnir iyunun 21-dən iyulun 2-dək keçiriləcək.

Qeyd edək ki, Bakı və Qəbələ dəfələrlə Dünya Kuboku yarışlarının ev sahibi olub.

## Böyük Dəbilqə turniri pandemiyaya görə keçirilməyəcək

Bu il Bakıda keçirilməsi nəzərdə tutulan cüdo üzrə Böyük Dəbilqə turniri təşkil olunmayacaq. Buna koronavirus pandemiyasına görə yaranmış vəziyyət səbəb olub.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, hələlik Azərbaycan ərazisində qapalı məkanda beynəlxalq yarışların və kütləvi idman tədbirlərinin keçirilməsinə icazə verilmir.

Beynəlxalq Cüdo Federasiyası (İJF) artıq Tokio Yay Olimpiya Oyunlarına qədər keçiriləcək yarışların siyahısını açıqlamaq qərarına gəlib. Olimpiada ili olduğu üçün İJF lisenziya xallarını verən yarışların tezliklə bilinməsinin tərəfdarı olub. Hər il mayda Bakıda təşkil edilən Böyük Dəbilqə siyahıya daxil edilməyib.

Qeyd edək ki, 2020-ci ildə olimpiadaya lisenziya xalları qazandıran ənənəvi yarış koronavirus pandemiyası səbəbindən ləğv edilib.

Xatırladaq ki, 2013, 2014, 2015, 2016, 2017 və 2019-cu illərdə Bakıda Böyük Dəbilqə yarışı təşkil edilib.

# Olimpizm

### Tokio Olimpiadasının sponsor müqavilələri uzadıldı

2021-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsi bütün sponsorlarla müqavilələri uzadıb. Bunu qurumun rəhbəri Yesiro Mori açıqlayıb. O bildirib ki, 68 tərəfdaşın hamısı ilə müqavilələr uzadılıb. Sponsor şirkətlərlə anlaşmalar 2020-ci ilin sonunda başa çatmalı idi. Lakin koronavirus pandemiyası üzündən yarışlar 2021-ci ilə təxirə salınıb. Müqavilənin uzadıldığı şirkətlər arasında "Toyota", "Panasonic" və "Bridgestone" kimi nəhənglər də yer alıb.

TOKYO 2020 CANDIDATE CITY

Qeyd edək ki, Olimpiya Oyunları iyulun 23-dən avqustun 8-dək, Paralimpiya Oyunları avqustun 24-dən sentyabrın 5-dək keçiriləcək.

### Olimpiya Oyunlarının büdcəsi artırıldı

2021-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının büdcəsi artırılıb. Məlumata görə, yarışların ümumi büdcəsi 15,8 milyard dollara çatıb. Buna Olimpiya və Paralimpiya Oyunlarının koronavirus pandemiyası üzündən bir il sonraya təxirə salınması səbəb olub. Bu rəqəm əvvəlki ilə müqayisədə 2,85 milyard artıb. Bunun böyük hissəsi idman obyektləri və Olimpiya kəndi ilə bağlıdır. 931 milyon isə koronavirus infeksiyasının yayılmamasına xidmət edən tədbirlərə yönələcək. Yarışın Təşkilat Komitəsi 6,97, şəhər rəhbərliyi 6,787 milyard xərcləyəcək. Digər vəsaiti Yaponiya hökuməti ayıracaq. Beynəlxalq Olimpiya Komitəsi də 193 milyon ödəyəcək.

### İslam Həmrəyliyi Oyunlarının proqramı açıqlandı

Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında idman növlərinin tam siyahısı dəqiqləşib. 2021-ci il sentyabrın 10-dan 19-dək keçiriləcək multi-idman yarışında 20 növ üzrə qaliblər müəyyənləşəcək. 56 ölkədən 3 minə yaxın idmançının iştirak edəcəyi Konya-2021-in proqramına atletika, badminton, basketbol 3x3, velosiped idmanı (trek və şose), gimnastika (aerobika və idman), futbol, güləş (sərbəst və yunan-Roma), ağırlıqqaldırma, həndbol, cüdo, karate, kikboksinq, stolüstü tennis, taekvondo, voleybol, üzgüçülük, qılıncoynatma, oxatma, ənənəvi oxatma və bocce daxildir.

KONYA 2021 5. İSLAMİ DAYANIŞMA OYUNLARI 5th ISLAMIC SOLIDARITY GAMES

Qeyd edək ki, bundan əvvəlki İslam Həmrəyliyi Oyunları 2017-ci ildə Bakıda keçirilib.

*Əsrin yarısını şərəflə tamamlayan Olimpiya çempionu*
Səh. 3

Vətən müharibəsinin qazi idmançılarından qürurverici xatirələr
Səh. 4

*İdman Şuşada yeni dövrünə qədəm qoyacaq*
Səh. 5

**Şahin Musaoğlu:** "Ola bilər ki, "Zəfər marşı"nı bir uşağın, şəhidin və ya şəhid anasının dilindən yazım"
Səh. 6

## Kapitan karyerasını başa vurub, məşqçiliyə başladı

Sərbəst güləş üzrə millimizin kapitanı Cəbrayıl Həsənov idmançı karyerasını başa vurub. Titullu güləşçimiz bundan sonra məşqçi kimi fəaliyyət göstərəcək.



Belə ki, Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyevin müvafiq əmrinə əsasən Cəbrayıl Həsənov sərbəst güləş üzrə gənclərdən ibarət yığma komandanın böyük məşqçisi vəzifəsinə təyin olunub. Bu komandada Rövşən Hacıyev, Nazim Əlicanov və Əşrəf Əliyev məşqçi kimi fəaliyyəti davam etdirəcək. Namiq Əliyev gənc mütəxəssisə idmançı kimi göstərdiyi xidmətlərə görə təşəkkür edib və ona yeni vəzifəsində uğurlar arzulayıb. Federasiyanın rəhbəri bundan sonra sərbəst güləş üzrə böyüklər ibarət yığma komandanın kapitanının Şərif Şərifov olacağını bildirib.

İdmançı kimi böyük uğurlara imza atan Cəbrayıl Həsənov Azərbaycan Güləş Federasiyasının saytına açıqlamasında bunları deyib: "Ötən il Avropa çempionatına hazırlaşanda boynumdan zədə aldım. Müayinə zamanı boynumda iki yırtıq aşkarlandı. Ona görə də qitə birinciliyində tam gücümlə iştirak edə bilmədim. Açığı, Tokio Olimpiya Oyunlarında çıxış etdikdən sonra karyeramı başa vurmağı planlaşdırırdım. Ancaq bu zədəyə görə məşqlərdə ağrılar qalmaqda idi. Ona görə də fikirləşdim ki, idmançı karyeramı başa vurum. İnşallah, bundan sonra məşqçi kimi fəaliyyətimi davam etdirəcəyəm. Federasiyanın prezident əvəzi Namiq Əliyevə məni bu vəzifəyə təyin etdiyi üçün təşəkkürümü bildirirəm. Məşqçi kimi etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Əlbəttə, hər idmançının ən böyük arzusu Olimpiya çempionu olmaqdır. Bu mənə nəsib olmasa da, Olimpiya medalı qazana bilmişəm. Rio Olimpiadasındakı üçüncü yeri karyeramın ən böyük uğuru sayıram. Əslində Londonda da eyni nəticəyə imza ata bilərdim. Kubalı güləşçiylə görüşdə qələbə qazanmağa yaxın idim. Ancaq sona bir neçə saniyə qalmış səhv edərək məğlub oldum. Bu, ən məyus olduğum görüş oldu. Karyeram boyunca ən prinsipial rəqibim rusiyalı Aniuar Geduyev idi. Onunla müxtəlif yarışlarda qarşılaşmışıq.

Şərif Olimpiya, dünya və Avropa çempionumuzdur. Bu nəticəyə imza atan yeganə güləşçimizdir. Kapitanlıq həm ona, həm komandamıza düşərli olar. İnşallah, komandamız Olimpiya Oyunlarında uğurlu çıxış edib, bayrağımızı yüksəldər".

Xatırladaq ki, Cəbrayıl Həsənov Rio Olimpiadasında bürünc medal qazanmaqla yanaşı, 2 dəfə dünya ikincisi, 3 dəfə Avropa çempionu, ilk Avropa Oyunlarının bürünc medalçısı olub. C.Həsənov ümumilikdə dünya və Avropa çempionatlarında 12 dəfə fəxri kürsüyə qalxıb.

## AİBA yeni komitələr yaradıb

Beynəlxalq Boks Assosiasiyası (AİBA) beş yeni komitə yaratdığını açıqlayıb. Bu barədə AİBA-nın mətbuat xidmətindən məlumat verilib. Belə ki, yeni yaradılan mütəxəssislər komitəsi ixtisaslı məşqçilər heyətinin və idmançıların hazırlanmasını, qadınlar komitəsi boks dünyasında gender bərabərliyini, tibbi və antidopinq komitəsi isə antidopinq tələblərinə riayət edilməsini təmin edəcək.

Çempionlar və veteranlar komitəsi dünya ictimaiyyətinin hörmət etdiyi, əhəmiyyətli idman nəticələri qazanan və təcrübələrini bölüşməyə hazır olan çempionlar və veteranları əhatə edəcək. Tədbirlərin keçirilməsinə və onların beynəlxalq tələblərə cavab verməsinə nəzarəti isə yarışlar komitəsi həyata keçirəcək.

# Gimnastika Federasiyası 2020-ci ilin hesabatını təqdim etdi




***2020-ci il bütün dünyada olduğu kimi, ölkəmiz üçün də əlamətdar hadisələrlə yadda qaldı. Azərbaycan Gimnastika Federasiyasının (AGF) aktiv fəaliyyəti yenidən Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən yüksək qiymətləndirildi. Ötən ilin nəticələrinə əsasən AGF bir daha "Mükafatlandırılan federasiyalar"ın siyahısında birinci oldu. AGF altı il ərzində - 2014-2019-cu illərdə ardıcıl olaraq FIG-in 10 ən güclü federasiyalarının siyahısında yer alıb, son üç ildə isə həmin siyahıya liderlik edib. Yola saldığımız 2020-ci ilin gimnastika təqvimi bir sıra yarışlar və tədbirlərlə zəngin olsa da, dünyanı bürümüş COVID-19 pandemiyası səbəbindən həmin turnirlərin bir çoxu ləğv edildi və ya təxirə salındı. Bütün idman ictimaiyyətinin səbirsizliklə gözlədiyi Olimpiya Oyunları belə növbəti ilə keçirildi.***

Pandemiya AGF-in fəaliyyətindən də təsirsiz ötüşmədi. Belə ki, federasiyanın təşkil edəcəyi bir beynəlxalq yarış ləğv edildi, dünya çempionatı da daxil üç yarış təxirə salındı, iki Avropa birinciliyinin keçirilməsi isə Bakıdan digər ölkəyə köçürüldü.

Bütün bunlara baxmayaraq, Milli Gimnastika Arenası (MGA) ilin əvvəlində 3 yarışa ev sahibliyi etməyə nail oldu. İlk olaraq, batutçular Olimpiya Oyunlarına təsnifat xarakterli dünya kubokunda iştirak etmək üçün ölkəmizin paytaxtına təşrif buyurdular. Daha sonra gənc kişi idman gimnastları MGA-da 1-ci "AGF Junior Trophy" turnirində mübarizə apardılar. Azərbaycan təmsilçiləri bu yarışda fərqlənməyi bacararaq yığma komandamızın hesabına 2 gümüş və 1 bürünc medal yazdırdılar.

Bunun ardınca ölkəmizdə Olimpiadaya lisenziya xarakterli daha bir yarış - idman gimnastikası üzrə dünya kuboku təşkil edildi. Lakin koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda qəbul edilmiş təxirəsalınmaz qabaqlayıcı tədbirlərlə bağlı bu kubokun final mərhələləri ləğv olundu. Təsnifat mərhələsində idmançıların qazandıqları xalların final nəticələri kimi qəbul olunduğu bu yarışda qadın idman gimnastımız Marina Nekrasova bürünc medal əldə etdi.




2020-ci ildə gimnastlarımız üçün ən uğurlu hadisə Ukraynada təşkil edilmiş bədii gimnastika üzrə Avropa çempionatında iştirak oldu. Bədii gimnastlarımız bu yarışda üççat uğura imza atdılar. Zeynəb Hümmətova, Darya Sorokina, Məryəm Səfərova, Ləman Əlimuradova və Yelizaveta Luzandan ibarət qrup hərəkətləri komandamız çoxnövçülükdə gümüş medala layiq görüldülər. Bu medal Azərbaycanın bədii gimnastika tarixində qrupumuzun çoxnövçülükdə qazandığı ilk medaldır. Daha bir medalı - bürüncü istedadlı qrup komandamız 3 halqa və 2 cüt gürzlə final çıxışlarına görə əldə etdi. Növbəti medal isə komanda hesabında qazanıldı. Qrup və gənc gimnastlarımızın (Nərmin Bayramova, Alina Gözəlova, İlona Zeynalova, Leyli Ağazadə) topladıqları xalların cəminə əsasən bu proqram üzrə də bürünc medal əldə olundu.

Yığma komanda üzvlərimizin çempionatda çıxışları zamanı istifadə etdikləri geyimlər isə azarkeşlər, gimnastika mütəxəssisləri, eləcə də dünya mediası daxil hər kəsin diqqətini cəlb etdi və uzun müddət sosial şəbəkələrdə geniş müzakirə olundu.

Martdan etibarən bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da karantin rejimi elan edildi. Karantin dövründə bir sıra kütləvi tədbirlərlə yanaşı idman yarışlarının da keçirilməsi, o cümlədən idman zallarında məşqlər qadağan olundu. Buna baxmayaraq, karantin dövründə sağlamlığı qorumaq, immuniteti gücləndirmək və səhhəti gümrah saxlamaq üçün əhaliyə gündəlik idmanla məşğul olmaq, fiziki aktiv olmaq tövsiyə olundu. AGF də bunu nəzərə alaraq bir sıra layihələr həyata keçirdi. İnsanların öz evində rahat idman etmələri üçün hər gün peşəkar məşqçilər tərəfindən səhər gimnastikası təqdim edildi və hamıya əlçatan olması üçün federasiyanın sosial şəbəkə hesablarında yayımlandı. Bundan əlavə səhər gimnastikası yerli TV kanalla əməkdaşlıq çərçivəsində televiziya vasitəsilə də geniş əhali kütləsinə təqdim edildi. AGF, həmçinin əhalinin gimnastika ilə düzgün şəkildə məşğul olaraq sağlam qalması üçün vaxtaşırı maarifləndirici videoçarxlar da hazırlayaraq, sosial şəbəkə hesablarında paylaşır.



Karantində idman zalları bağlı olsa da, gimnastlarımız məşqlərini evdə davam etdirdilər. Gimnastlarımızla çalışan məşqçilər və xoreoqraflar isə daim onların məşqlərini nəzarətdə saxlayaraq, evdə məşq zamanı fiziki formalarını qorumaları üçün müntəzəm olaraq məsləhətlər verirdilər. Gimnastlar onlayn yarışlarda iştirak edərək, mükafatçılar sırasına daxil olmağı da bacarıblar.

Evdə onlayn təlimlər keçdikləri müddətdə gimnastika növlərinin nümayəndələri bir sıra maraqlı və əyləncəli onlayn müsabiqə və "challenge"lərdə iştirak ediblər, həmçinin, özləri də kreativ təşəbbüslərlə çıxış ediblər.

Karantin günlərinin davam etdiyi bir dövrdə xarici ölkələrin gimnastları üçün onlayn ustad dərsləri də təşkil edilib. Bu cür təlimlər məşqçi və xoreoqraflarla yanaşı bədii gimnastika üzrə yığmanın gimnastları tərəfindən də keçirilib. Bu ustad dərslərindən Polşa, Slovakiya, Latviya, Hindistan, Misir, Braziliya, Monteneqro, Meksika, Argentina, Filippin və bir sıra digər ölkə təmsilçiləri faydalanıblar.

Bu müddətdə Azərbaycan və İsrailin bədii gimnastika üzrə yığma komandalarının çox maraqlı ilk birgə onlayn yarışması baş tutdu. "Battle" adlanan bu yarışda hər iki ölkənin Tokio-2020 Olimpiadasına lisenziya qazanmış komandaları iştirak ediblər. Yarışın məqsədi karantin günlərinin davam etdiyi və gimnastika yarışlarının olmadığı bir zamanda gimnastlara yarış əhval-ruhiyyəsini yenidən yaşatmaq, onlayn da olsa, birgə maraqlı vaxt keçirərək əylənmək idi.

AGF hər zaman olduğu kimi ötən il də məşqçi və hakimlərin ixtisaslarının artırılmasını diqqətdə saxlayıb. Belə ki, ötən ilin əvvəllərində yerli hakim və məşqçilər üçün gimnastika növləri üzrə kurslar təşkil edilib.

Bundan başqa, Azərbaycanın "TeamGym" üzrə hakimləri Avropa dərəcələrini artırıblar. İyulun sonlarında keçirilmiş bu növ üzrə onlayn hakimlik imtahanlarında iştirak edən təmsilçilərimiz İnara İsrafilbəyova və Akif Kərimli 3-cü hakimlik dərəcəsinə kimi yüksəliblər.

AGF tərəfindən ötən il həm də ilk dəfə "Gimnastika hamı üçün" növünə aid məlumat xarakterli vebinar təşkil olunub. Gimnastika mütəxəssislərinin və bu gimnastika növü ilə tanış olmaq istəyən şəxslərin böyük marağına səbəb olmuş vebinarda iştirak üçün ümumilikdə 84 nəfər qeydiyyatdan keçib. İştirakçılar arasında ölkənin müxtəlif şəhər və rayonları - Qax, Zaqatala, Balakən, Qusar, Şirvan, Gəncə, Lənkəran, Mingəçevir, Naxçıvan və digər bölgələrdən olan təmsilçilər yer alıb.

Yola saldığımız il bütün dünya ölkələri üçün olduğu kimi, Azərbaycan üçün də fərqli bir il oldu. Qarşıya çıxmış müəyyən məhdudiyyətlər və çətinliklərə baxmayaraq, 2020-ci ildə federasiya bir sıra yenilikləri də sınaqdan keçirdi və yeni bacarıqlar əldə etdi. Qarşıda isə bizi mühüm gimnastika tədbirləri ilə zəngin yeni bir il gözləyir. Azərbaycan Gimnastika Federasiyası növbəti ildə hər kəsə möhkəm sağlamlıq, işlərində uğurlar arzu edir.

**Yubiley**

# Əsrin yarısını şərəflə tamamlayan Olimpiya çempionu

***Ötən əsrin 90-cı illərində adı dillər əzbəri olan bu oğlan öz həyat yolu, karyerası ilə həyatını idmana bağlamaq istəyən istənilən gənc üçün örnəkdir. "Qalib gəlmək bir vəzifədir, biz idmançıların boyuna biçilib", - deyən qəhrəmanımız bu yaxınlarda 50 yaşını qeyd etdi. Söhbət Sidney-2000 Yay Olimpiya Oyunlarının qalibi, üçqat Avropa çempionu, dünya çempionatının gümüş və bürünc mükafatçısı Namiq Abdullayevdən gedir. Təkcə idmandakı uğurları ilə deyil, həm də davranışı, həyat tərzi ilə başqalarına nümunə olan çempionumuz öz yubileyini ailəsi ilə birgə keçirdi. Hər zaman idmançıları və Olimpiya çempionlarını diqqətdə saxlayan "Olimpiya dünyası" qəzeti budəfəki sayında Azərbaycan güləşinin canlı əfsanəsi Namiq Abdullayevin yubileyinə həsr olunmuş xüsusi səhifə hazırlayıb.***



## Futbol sevgisindən güləşə

Müstəqil Azərbaycanın Olimpiya Hərəkatının bayraqdarlarından olan Namiq Abdullayev 1971-ci il yanvarın 4-də Bakı şəhərində anadan olub. Əslən Xızıdan olan çempionumuz çoxuşaqlı ailədə (dörd bacı, beş qardaş) böyüyüb. 1978-ci ildə Bakının Nəsimi rayonunda yerləşən 19 saylı orta məktəbin I sinfinə gedib. 1992-ci ildə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunu, ardınca Bakı Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi şöbəsini bitirib. Uşaqlıq illərini xatırlayan Namiq Abdullayev



deyir ki, bütün uşaqlar kimi çox dəcəl olub. O, uşaq yaşlarından idmanın futbol növünə maraq göstərib. "İdman sahəsində ilk seçimim futbol olub. Hələ üçüncü sinifdə oxuyanda bir müddət futbol məşqlərinə getmişəm. Məktəbimiz üçüncü mikrorayonun ərazisində yerləşirdi. Orada bacarıqlı məşqçilər biz məktəblilərlə məşğul olurdu. Məktəbdə və evə qayıdandan sonra həyətdə futbol oynayırdım. Dərslərimlə məşğul olmağa az vaxtım qalırdı. Valideynlərim də bundan narazı idilər. Bu gün də futbolla maraqlanıram. Hər zaman "Neftçi" komandasına azarkeşlik etmişəm. Son illərdə "Qarabağ" klubu Çempionlar Liqasının və Avropa Liqasının qrup mərhələsindəki uğurlu çıxışı ilə xalqımızı sevindirdi. Bir azərbaycanlı kimi "Qarabağ"ın oynadığı oyunlarda bu kluba azarkeşlik etmişəm. Mənim üçün ən əsası isə milli komandamızın uğurlu çıxışına sevinmək olub. Dünya futbolu ilə də maraqlanıram. Xüsusən də İspaniya və İngiltərə çempionatlarını izləyirəm. Dünyada əsas azarkeşlik etdiyim komanda isə İspaniyanın "Real Madrid" klubudur", - deyə Namiq Abdullayev bildirib. Namiq Abdullayevin futbola böyük sevgisi olsa da, sonradan seçimi güləş idman növü olub. Bu da təsadüfi deyil. Əminliklə demək olar ki, güləş bacarıqları ona irsən keçib. Dayısı eldə-obada tanınan pəhləvanlardan biri idi. Əmisi oğlu Elxan Abdullayev və qardaşı Arif Abdullayev güləşlə məşğul olub. Beləliklə, Namiq Abdullayev Əməkdar məşqçi Vahid Məmmədovun rəhbərliyi altında güləşin sirlərini öyrənməyə başlayıb.

## Uğur hekayəsinin başlanğıcı

Namiq Abdullayev keçmiş SSRİ və beynəlxalq idman ustası, Azərbaycanın Əməkdar idman ustasıdır. Onun idmançı karyerası nailiyyətlərlə zəngindir. Təsadüfi deyil ki, Olimpiya çempionumuzun müxtəlif idman yarışlarında əldə etdiyi medallar böyük bir muzeyin eksponatı ola bilər. İlk uğurunu 1988-ci ildə Olimpiya Ümidi Beynəlxalq turnirində qazanan Namiq daha sonra bir çox uğurlarla yanaşı, Avropa və Olimpiya çempionu adını qazanıb. 1989-cu ildə Namiq SSRİ birinciliyində gümüş medala sahib çıxıb. O vaxtlar SSRİ birinciliyində rəqabət çox güclü idi. Bu baxımdan SSRİ çempionatının mükafatçısı olmaq artıq dünya və Avropa çempionatlarında uğurun qapısının açılması demək idi. Belə də oldu. Namiq 1990-cı il Kanadada SSRİ yığma komandasının tərkibində Dünya Kuboku yarışında birinci yeri tutaraq, ilk beynəlxalq titulunu qazanıb. O, 1991-ci ildə SSRİ birinciliyindəki nəticəsini daha da yaxşılaşdıraraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Namiq Abdullayevin əsas uğurları müstəqil Azərbaycan bayrağı altında çıxış etdiyi illərə təsadüf edib. O, 1994 və 1995-ci illərdə İtaliya və İsveçrədə keçirilən Avropa çempionatlarında birinci olub. 1994-cü ildə dünya çempionatında yalnız final görüşündə uduzaraq, gümüş medala sahib çıxıb. 1996-1997-ci illərdə Budapeşt və Varşavada keçirilən Avropa çempionatlarında da uğurla çıxış edərək, mükafatçılar sırasına düşüb (2-ci və 3-cü yer). Namiq Abdullayevin karyerasında olimpiadaların xüsusi yeri var. O, 1996-cı ildə ABŞ-da keçirilən Atlanta Yay Olimpiya Oyunlarında Azərbaycana gümüş medal qazandırıb. 4 il sonra - 2000-ci ildə Avstraliyanın Sidney şəhərində təşkil olunan XXVII Yay Olimpiya Oyunlarında isə inamlı qələbə qazanaraq birinci yeri tutub və ölkəmizə olimpiadanın qızıl medalını bəxş edib. Beləliklə, Sidneyə kapitan kimi yollanan çempionumuz bu adı doğrultmağı bacarıb. Bundan sonrakı illərdə də Namiq Azərbaycan güləşinin inkişafı üçün əlindən gələni edib. Aldığı zədələrə, yaşının artmasına baxmayaraq təcrübəsi sayəsində uğur qazanmağa çalışıb. O, 2002-ci ildə dünya çempionatının gümüş medalçısı, 2003-cü ildə Avropa çempionu, 2004-cü ildə Dünya Kubokunun qalibi, 2006-cı ildə dünya çempionatının bürünc medalçısı, 2006-cı ildə Avropa çempionatının gümüş mükafatçısı olub. 2008-ci ildə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qızıl Qran-Pri" beynəlxalq turnirinin gümüş medalına yiyələnərək, karyerasını yalnız 2009-cu ildə başa vurub. O, həmin ilin iyulun 18-də Bakı İdman Sarayında təşkil olunan "Qızıl Qran-Pri" turnirinin final mərhələsində alqışlarla yola salınıb. N.Abdullayev son 25 ildə yetişən güləşçilərimizin ən məşhurlarından hesab olunur. Olimpiya çempionu və digər məsul yarışların qalibi kimi Azərbaycanın idman tarixinə düşən güləşçimizin xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, o, "Tərəqqi" medalı və "Şöhrət" ordeni ilə təltif olunub.

## "50 yaşımın olmasına baxmayaraq, məşqlərdə bunu hələ ki, hiss etmirəm"

Qeyd etdiyimiz kimi, bu yaxınlarda 50 yaşı tamam olan çempionumuz yubileyini öz ailəsi ilə birgə qeyd etdi. Həm valideynləri, məşqçiləri, həm də ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində olduğunu deyən N.Abdullayev qazandığı nailiyyətlərə görə,



dövlət tərəfindən təltif olunduğunu qeyd edib. Bir idmançı üçün bundan böyük xoşbəxtliyin olmadığını deyən yubilyar zəfərə gedən yolun çətin olmasına baxmayaraq, nizam-intizamı və çalışqanlığı sayəsində bu pilləyə yüksəldiyini vurğulayıb:

"Artıq bir ilə yaxındır ki, dünyada olduğu kimi, ölkəmizdə də koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri görülür. Bunun üçün toy, ad günü və digər məclislərin keçirilməsi qadağan edilib. Bu səbəbdən də doğum günümü öz evimdə, ailəmlə keçirdim. Yubiley münasibətilə çoxsaylı təbriklər aldım. Məni təbrik edən hər kəsə, xüsusilə də, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Güləş Federasiyası və Daxili İşlər Nazirliyinin Daxili Qoşunların komandanlığının rəhbərliyinə minnətdarlığımı bildirirəm. Yubiley münasibətilə Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyevin, sərbəst və yunan-Roma güləşi üzrə yığmaların məşqçilərinin iştirakı ilə federasiyada görüş keçirildi. Bu tədbirdə federasiyanın rəhbəri və məşqçilər mənim haqqımda xoş arzuları bildirdilər. Hər dəfə idmançıların, Olimpiya mükafatçılarının yubileyləri Milli Olimpiya Komitəsində, Gənclər və İdman Nazirliyində qeyd olunurdu. Amma bu il pandemiya ilə əlaqədar olaraq belə tədbirlər keçirmək mümkün deyil. İnşallah tezliklə pandemiya başa çatar və bu ənənə yenidən davam edər. 50 il bir əsrin yarısıdır. Bu yaş hər bir insan üçün çox əlamətdardır. İnsan həm üzülür, həm də sevinir. İdmanla məşğul olan insanlar yaşı hiss etməsələr də, yaş öz sözünü deyir. Lakin 50 yaşımın olmasına baxmayaraq, mən məşqlərdə bunu hələ ki, hiss etmirəm. Hər kəsə cansağlığı arzu edirəm. Fərqi yoxdur hansı peşə sahibi olmaqlarından asılı olmayaraq, insanlara sağlamlıqları üçün idmanla məşğul olmağı tövsiyyə edirəm".

Namiq Abdullayev bu gün də səmərəli fəaliyyətdədir. Polkovnik rütbəsini daşıyan Olimpiya çempionumuz Daxili İşlər Nazirliyinin tabeçiliyində olan Daxili Qoşunların İdman Komandasının rəisi vəzifəsində çalışır. Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü olan N.Abdullayev paralel olaraq həm də Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti və sərbəst güləş üzrə milli komandanın baş məşqçi vəzifəsini icra edir. Bir sözlə, çempionumuz Olimpiya zirvəsini fəth etməyin sirlərini bu gün təcrübəsindən istifadə edərək güləşçilərimizlə bölüşür.

*Azər Əlizadə,*
*Türkay Niftəliyeva*

***Namiq Abdullayevin 50 illik yubileyi münsaibəti ilə Olimpiya çempionları öz təbriklərini qəzetimiz vasitəsi ilə idmançıya çatdırdılar. Onlar yubilyarla bağlı xatirələrini də qəzetimizlə bölüşdülər.***

### "Mən Namiqi ikiqat Olimpiya çempionu adlandırıram"

***Nazim Hüseynov (Olimpiya çempionu):***

- Biz fərqli idman növlərində çıxış etsək də, onunla gözəl münasibətimiz var. Təvazökarlığı, istedadı və bacarığı ilə hər zaman seçilib. O, müstəqil Azərbaycanın ilk Olimpiya çempionlarından biridir. Əslində mən Namiqi ikiqat Olimpiya çempionu adlandırıram. Onun Atlanta Olimpiadasında qazandığı gümüş medalı qızıl medal kimi dəyərləndirirəm. Bir sözlə, güləşdə öz möhürünü vurmuş bir insandır. Bu gün də öz zəngin təcrübəsini gənclərdən əsirgəmir. Namiq Abdullayevi yubiley münasibəti ilə təbrik edir, ona uğurlar və cansağlığı arzulayıram.

### "Qazandığımız qızıl medal dostluğumuzu daha da möhkəmləndirdi"

***Zemfira Meftaxetdinova (Olimpiya çempionu):***

- Namiq Abdullayev barədə çox danışmaq olar. Həm gözəl dost, həm də istedadlı idmançı olan Namiq Abdullayevə bənzəmək istəyən və ondan ibrət götürən idmançılarımız çoxdur. Bizim tanışlığımız 1996-ci ildə təşkil olunan Atlanta Olimpiadasında başlayır. Qazandığımız qızıl medal dostluğumuzu daha da möhkəmləndirdi. Namiq Abdullayevlə bağlı mənim bir çox gözəl xatirələrim var. Onlardan biri də, bizim üçün çox dəyərli olan Sindey Olimpiya Oyunlarından sonra Azərbaycanda qarşılanmağımızdır. Bir daha Namiq müəllimi yubiley münasibəti ilə təbrik edir, ona cansağlığı və gələcək işlərində müvəffəqiyyətlər arzu edirəm.

### "Namiq müəllim Azərbaycan gəncləri üçün əsl nümunə göstəriləcək idmançılarımızdan biridir"

***Fərid Mansurov (Olimpiya çempionu):***

- Namiq Abdullayevi 50 illik yubiley münasibəti ilə təbrik edirəm. O Azərbaycan idmanının ən tanınmış simalarından biridir. Avropa, Olimpiya çempionu, dünya çempionatının və bir sıra mötəbər yarışların mükafatçısı olub. Namiq müəllim Azərbaycan gəncləri üçün əsl nümunə göstəriləcək idmançılarımızdan biridir. Onunla bir sıra səfərlərdə otaq yoldaşı olmuşuq. Çox alicənab bir insandır. O, sərbəst güləş üzrə yığma komandanın baş məşqçi vəzifəsinə təyin olunub. Arzu edirəm ki, Namiq Abdullayev Olimpiya Oyunlarının qalibi kimi ölkəmizə Olimpiya çempionu yetişdirsin. Mən Namiq Abdullayevə həm şəxsi həyatında, həm də karyerasında uğurlar arzulayıram.

### "Namiq Abdullayev bu zirvəni öz istedadı və zəhməti hesabına fəth etdi"

***Elnur Məmmədli (Olimpiya çempionu):***

- Namiq Abdullayev Azərbaycanın yeni müstəqillik qazandığı vaxtlarda ölkəmizi idman sahəsində beynəlxalq arenalarda parlaq qələbələri ilə layiqincə tanıdıb. Onun karyerası ərzində qazandığı medalları hansısa güclü bir idmançının boynundan assanız, həmin idmançının boyunu medalların ağırlığından əyilər. Namiq Abdullayev bu zirvəni öz istedadı və zəhməti hesabına fəth etdi. Yadıma gəlir ki, Olimpiya çempionu olandan sonra Namiq Abdullayev, Mövlud Mirəliyev, Şahin İmranov və mən "Vaz-2107" markalı avtomobillə Kürdəmir Olimpiya Kompleksinin açılışına gedirdik. Həmin an Namiq Abdullayevin idarə etdiyi maşını dövlət yol polisi saxladı. Polis gördü ki, maşında 4-5 Olimpiya mükafatçısı əyləşib. Həmin polis qayıdıb bizə dedi ki, maşallah Olimpiya çempionlarına bu qədər pul verilir. Siz niyə "07" markalı avtomobil sürürsünüz? Hamımız bu sözdən sonra gülümsədik. Onunla bağlı olan bu xatirə hər zaman yadımdadır. Namiq Abdullayevi yubiley münasibəti ilə təbrik edir, ona cansağlığı və işlərində müvəffəqiyyətlər arzu edirəm.

# Vətən müharibəsinin qazi idmançılarından qürurverici xatirələr

***Heç kəsə sirr deyil ki, Vətən müharibəsində əldə olunan qələbələrdə idmançılarımızın da payı az olmadı. Hər zaman beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıran çempionlarımız bu dəfə işğal altında olan əzəli torpağımız Qarabağda bayrağımızın dalğalandırılmasında yaxından iştirak etdilər. Onlar idman arenalarında olduğu kimi, gərgin döyüşlərdə də mərdlik, qorxmazlıq və şücaət göstərərək adlarını qızıl hərflərlə zəfər salnaməsinə əbədi olaraq yazdılar. "Olimpiya dünyası" qəzeti budəfəki sayında Vətən müharibəsində iştirak edən və bu döyüşlərdə yaralanan qəhrəman idmançılarımızın bir neçəsi haqqında məlumatları bir araya toplayıb. Elə bu məqsədlə mülki həyatda idmanla məşğul olmuş hərbçilərimizlə əlaqə saxlayaraq, onların döyüş təəssüratlarını oxucularımıza təqdim edirik.***

### "Yeganə təəssüf hissi keçirdiyim məqam Şuşaya gedib çata bilməməyim oldu"

- İkinci Qarabağ müharibəsinin başladığı ilk günlərdən döyüşlərdə qəhrəmancasına iştirak edən hərbçilərimizdən biri taekvondo üzrə yığma komandamızın keçmiş üzvü, bir sıra ölkədaxili və beynəlxalq turnirlərin qalibi adını qazanan Elxan İsayevdir. Zədə səbəbindən karyerasını erkən başa vuran qəhrəmanımız öz bacarığını döyüş meydanında nümayiş etdirib. Elxan İsayevin dediklərindən də bunu aydın hiss etmək olur:

"1993-cü il iyulun 16-da Bakı şəhərində anadan olmuşam. 2002-ci ildən mərhum mütəxəssis Əvəz Tağıyevin rəhbərliyi altında taekvondo ilə məşğul olmağa başlamışam. İdmanla məşğul olduğum dövrlərdə gənclər arasında respublika çempionatının qalibi və bürünc mükafatçısı, həmçinin böyüklər arasında respublika üçüncüsü olmuşam. Bundan əlavə bir sıra beynəlxalq turnirlərin qalib və mükafatçısıyam. 2014-cü ildə zədəmlə bağlı əməliyyat olundum. Bununla da idmanı erkən tərk etmək məcburiyyətində qaldım. Bir ildən sonra həqiqi müddətli hərbi xidmətə yollandım. 2018-ci ildə ali təhsilli olduğum üçün kurslar keçərək, leytenant hərbi rütbəsini aldım. Həmin ildən xidmətimi leytenant kimi davam etdirirəm. Vətən müharibəsinin başladığı ilk gündən döyüşlərdə iştirak etməyə başladım. Torpaqlarımızın azadlığı uğrunda gedən əks-hücum əməliyyatlarında müxtəlif istiqamətlərdə döyüşərək, düşmənin çoxlu sayda canlı qüvvəsini və texnikasını məhv etmişik. Əvvəlcə Füzuli, daha sonra isə Cəbrayıl və Hadrut istiqamətlərində gedən döyüşlərdə yaxından iştirak etmişəm. Xocavənd istiqamətində gedən ağır döyüşlərdə isə yaralanmışam. Döyüş zamanı yaxınlığımıza düşən mərminin təsirindən ağır dərəcədə kontuziya aldım. Əvvəl demək olar ki, eşitmə qabiliyyətimi tamamilə itirmişdim. Davam edən müalicə prosedurundan sonra səhhətim yaxşılaşıb. Döyüşlərdən danışarkən deyim ki, yeganə təəssüf hissi keçirdiyim məqam, Şuşaya gedib çata bilməməyim oldu. Çünki Şuşa bizim zəfər döyüşümüz idi. Amma o döyüşdə hərbçilərimizlə birgə iştirak etmək mənə qismət olmadı. Ali Baş Komandanımız Şuşanın azad olunması xəbərini elan edəndə televizorun qarşısında sevincimdən ağladım. Amma bu sevinc göz yaşları xəstəxana palatasında deyil, Şuşada olmalı idi. Azərbaycan Takevondo Federasiyasının nümayəndələri, xüsusilə də federasiyanın vitse-prezidenti Niyaməddin Paşayev mənimlə daim əlaqə saxlayır, diqqət və qayğısını göstərir. Səhhətimlə maraqlanan hər kəsə buradan təşəkkürümü bildirirəm. Bu tək hərbçilərin deyil, bütövlükdə Azərbaycan xalqının qələbəsidir".

### "Həmin gülləni döyüşlərdən xatirə olaraq saxlayıram"

Qızğın döyüşlərin getdiyi bir vaxtda müharibəyə könüllü yollanan idmançılar arasında güləşçilər də var idi. Onlardan biri də sərbəst güləş üzrə gənclər arasında Avropa çempionu və hərbçilər arasında dünya çempionu Qalib Əliyevdir. Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanan pəhləvan qazimiz döyüş meydanında yaşadıqları anları belə xatırlayır: "1992-ci il iyulun 17-də Gəncə şəhərində idmançı ailəsində anadan olmuşam. Atam Rəhim Əliyev SSRİ idman ustası, güləş üzrə Veteranlar arasında dünya çempionudur. İdmana ilk addımlarımı 9 yaşımda "Təhsil" Respublika İdman Mərkəzində atamın rəhbərliyi altında atmışam. Sonradan Elçin Zeynalovun rəhbərliyi altında məşqlərimi davam etdirmişəm. İlk böyük qələbəmi isə 2011-ci ildə Arif Abdullayevin rəhbərliyi altında Serbiyada gənclər arasında keçirilən Avropa çempionatında bürünc medal qazanmaqla əldə etmişəm. 2012-ci ildə isə Xorvatiyada gənclər arasında təşkil olunan Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam. Qeyd edim ki, bu qələbə mənim üçün daha əlamətdar oldu. Belə ki, çempionatın final görüşündə erməni rəqibi üzərində qalib gələrək, ona himnimizi dinləməyi məcbur etdim. 2017-ci ildə Litvada hərbçilər arasında dünya çempionu, 2017-ci ildə isə Türkiyədə Yaşar Doğu ənənəvi beynəlxalq turnirin qalibi olmuşam. Elə həmin ildə Gürcüstanda V.Balavadze Qran-prisinin qalibi, Dağıstanda keçirilən Əli Əliyev beynəlxalq turnirinin bürünc mükafatına yiyələndim. Bundan əlavə, böyüklər arasında Azərbaycan çempionatının 3 dəfə gümüş, 4 dəfə isə bürünc mükafatçısıyam. Sərbəst güləşdən əlavə, 2016-cı ildə Qırğızıstanda keçirilən milli güləş üzrə dünya çempionu titulunun sahibiyəm.

Müharibə başlayanda könüllü olaraq Tərtərə yollanmaq istəsəm də, orada olan dostum mənə Hərbi Komissarlığa müraciət etməyi məsləhət gördü. Elə həmin gün əlaqədar qurumdan mənə zəng gəldi. Sevinərək, birbaşa komisarlığa yollandım və sentyabrın 27-dən hərbi təlimlərdə iştirak etməyə başladım. Təlimlərdən sonra Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərə qoşuldum. Döyüşlər zamanı ilk əməliyyatlarımızdan birində düşmən snayperinin gülləsi ürək nahiyəmdə, bronjiletdə ilişib qalmışdı. Həmin gülləni döyüşlərdən xatirə olaraq saxlayıram. Son döyüşüm isə Xocavənd rayonunun girişində oldu. Açıq döyüşdə düşmən əsgərinin atdığı qumbara zamanı yaralandım. Bədənimi hiss etmirdim. Həmin gün, axşam döyüş ərazisindən təxliyə olundum. Əvvəlcə Füzuliyə, noyabrın 5-də isə Bakıya gətirildim. Gözümün və çənəmin altından qəlpə yarası almışdım. Həkimlər qəlpəni çıxardıqdan sonra onlara yenidən döyüşlərə getmək istədiyimi bildirdim. Baş həkimə bu barədə məlumat verdilər. Bir gün sonra isə qələbə xəbərini eşitdik. Xəstəxanada olduğumuz zaman Cənab Ali Baş Komandan İlham Əliyev və xanımı Birinci vitse-prezident Mehriban Əliyeva bizə baş çəkdi, qələbə münasibətilə bizi təbrik etdi. Həmçinin Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev hər zaman olduğu kimi, öz dəstəyini əsirgəmədi. Eləcə də Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, yığma komandanın üzvləri və digər yaxın idmançılar mənə baş çəkməyə gəlmişdilər. Onların hər birinə ayrı-ayrılıqda minnətdarlığımı bildirirəm. Bir idmançı və Vətən müharibəsinin iştirakçısı kimi, cənab Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva olmaqla, bütün xalqımızı bu şanlı zəfər münasibətilə təbrik edirəm".




### "Hərbi xidmətimi başa vurduqdan sonra yenidən idman karyeramı davam etdirəcəyəm"

Döyüş idman növlərində olduğu kimi, komanda idman növlərinin üzvləri də zəfər döyüşündə hərbçilərimizlə birgə çiyin-çiyinə vuruşaraq, bu tarixi hadisənin bir parçasına çevrildilər. Onlardan biri də həndbol üzrə yığmamızın üzvü Ramazan Muradovdur. 7 yaşından həndbolla məşğul olan idmançımız bu tarixi hadisənin iştirakçılarından olduğu üçün qürur hissi keçirdiyini deyir: "Həndbol üzrə dəfələrlə Azərbaycan və Bakı çempionatlarının qalibi olmuşam. Bolqarıstanda 23 yaşınadək gənclər arasında dünya çempionatının B kateqoriyasında iştirak etmişik. Həmin çempionatda Ermənistan komandasına qalib gəlmişik. Ötən il iyul ayında isə Gürcüstanda dünya çempionatının iştirakçısı oldum. Həmin yarışda iki dəfə oyunun ən yaxşı oyunçusu seçilmişəm.

Bu ilin iyul ayında hərbi xidmətə yollanmışdım. Müharibə başlayanda ailə üzvlərimə döyüşdə olduğumu deməmişdim. İstəmirdim ki, narahat olsunlar. Əks-hücum əməliyyatlarında Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Sentyabrın 30-dan oktyabrın 1-nə keçən gecə, yəni döyüşlərin dördüncü günündə düşmənin minamiyot atəşi nəticəsində yaralandım. Sağ əlimdən dörd, bel nahiyəmdən isə 12 qəlpə yarası almışam. Yaralanandıqdan sonra həmin ərazidən təxliyə olundum. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdiyim üçün qürur duyuram. Belə bir canlı tarixi yaşamaq və bir parçası olduğum üçün tam fərqli hisslər keçirirəm. Yaralanmağıma baxmayarq, hərbi xidmətimi başa vurduqdan sonra yenidən idman karyeramı davam etdirəcəyəm".

### "İstəmirdim ki, ailəm yaralı olmağımdan xəbər tutub, narahat olsun"

Vətən müharibəsinin qəhrəman idmançılarından biri olan Vidadi Xaliqov isə Laçın rayonu istiqamətində gedən döyüşlər zamanı yaralanıb. Hazırda ailəsi ilə birgə kirayə mənzildə yaşayan bu igidimiz yaralı olmasını öz ailəsinə bidirməyib. Evin tək oğlu olan qəhrəman müsahibimiz xəstəxana palatasında hər dəfə ailəsi ilə telefonla danışan zaman anasının narahat olmaması üçün yaralı olduğu halda, ağrısına güc gəlib, hər şeyin qaydasında olduğunu deyib:

"2005-ci ildən, yəni 8 yaşımdan karatenin WKF növü ilə məşğul olmağa başlamışam. 2014-cü ildə bu idman növü üzrə yeniyetmələr arasında Dünya kubokunda birinci yeri tutmuşam. Bundan başqa respublika çempionu adına sahib çıxmışam. İki il, 16-17 yaş qrupu üzrə 55 kq çəki dərəcəsində 1 nömrə olmuşam. Lakin 2015-ci ildə dizimdən əməliyyat olundum. Bundan sonra karyeramı davam etdirə bilmədim. Döyüşlərə gəlincə isə bu zəfərin, tarixi anların bir parçası olduğum üçün qürur duyuram. Oktyabrın 23-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırışından sonra təlimlərdə iştirak etdim. Noyabrın 3-də isə cəbhəyə yollandıq. Laçının Səfiyan kəndi uğrunda gedən döyüşlərdə iştirak etdim. 5 gün orada oldum. Noyabrın 8-də isə yaralandım. Biz orada postu qoruyurduq. Ermənilər minamiyotla atəş açdılar. Bu zaman bud və topuq nahiyəsindən qəlpə yarası aldım. Bir müddət Şəmkirdə xəstəxanada müalicə aldım. Yaralanmağımı ailəmə deməmişdim. İstəmirdim ki, ailəm yaralı olmağımdan xəbər tutub, narahat olsun. Hər dəfə ailəmlə danışanda ağrımağıma baxmayaraq, postda dayandığımı, hər şeyin qaydasında olduğunu deyirdim. İstəyirdim ki, onlar məni bu vəziyyətdə görüb üzülməsinlər".

### "Yaralanmasına baxmayaraq, yenidən cəbhəyə qayıdıb, düşmənə qarşı mübarizə aparmaq üçün tələsirdi"

Cəbhədə yaralanan digər idmançı-hərbçimiz isə Xəyal İmanovdur. O, 6 yaşından Azərbaycanın Əməkdar məşqçisi Rənad Əliyevin rəhbərliyi altında idmanın karate (WKF) növü ilə məşğul olub. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edən Xəyal boğazından qəlpə yarası alıb. Fədakar həkimlərimizin köməkliyi sayəsində qəlpə yarası çıxarılıb və o, yenidən hərbi xidmətə yollanıb. İdmançının özü hərbi xidmətdə olduğu üçün onun ilk məşqçisi "Gosoku-Ryu" karate idman klubunun rəhbəri, Milli Karate Federasiyasının Hakimlər Kollegiyasının üzvü, beynəlxalq dərəcəli hakim Rənad Əliyevlə əlaqə saxladıq. Təcrübəli mütəxəssis yetirməsi haqqında xoş sözlər dedi:

"Bu döyüşlərdə rəhbərlik etdiyim "Gosoku-Ryu" karate idman klubundan 7 tələbəm iştirak edib. Onlardan ikisi, Xəyal İmanov və Vidadi Xaliqov Vətən müharibəsində gedən döyüşlərdə yaralanıblar. Xəyal İmanov Suqovuşanın azad olunmasında iştirak edib və boğazından qəlpə yarası alıb. Xəyalın böyük qardaşı da bu müharibədə iştirak etmək üçün könüllü olaraq cəbhəyə yollanıb və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Xəyal dəfələrlə respublika çempionatının mükafatçısı olub. Şotokan karate üzrə Avropa çempionatının mükafatçısı və beynəlxalq turnirlərin qalibi adını qazanıb.

Yaralanmasına baxmayaraq, o müalicə dövründə belə yenidən cəbhəyə qayıdıb, hərbçi yoldaşları ilə birgə düşmənə qarşı mübarizə aparmaq üçün tələsirdi. Qeyd edim ki, Xəyal Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirdikdən sonra hərbi xidmətə yollanıb. O, hərbi xidmətini tezliklə başa vuraraq, Qarabağ qazisi və qəhrəman oğul kimi ailəsinin, dostlarının yanına qayıdacaq. Qeyd edim ki, tələbələrimdən Vidadi Xaliqov "Vətən uğrunda", Xəyal İmanov isə "Cəsur döyüşçü" fəxri medalı ilə təltif olunublar".

***Azər Əlizadə,***
***Türkay Niftəliyeva***

# İdman Şuşada yeni dövrünə qədəm qoyacaq

***Şuşa elm, mədəniyyət və incəsənət sahəsində olduğu kimi, idman sahəsində də fərqlənmişdir. XX əsrin 30-cu illərindən başlayaraq Şuşada bədən tərbiyəsi və idman sahəsində ulduzu parlayanlar indi də şuşalılar tərəfindən xatırlanırlar. Bədən tərbiyəsi və idman sahəsində özünməxsus xidmətləri olan şuşalıların fəaliyyətini qələmə almaq, onların indiki gənc nəslə tanıtmaq əsl vətəndaşlıq vəzifəsidir. Bu dəfə ki, məqaləmdə çalışdım ki, həmin idmançılar haqqında informasiyaları, Şuşanın idman qurğuları haqqında məlumatları bir araya toplayım.***



**28** ildən artıq bir müddətdə işğala məruz qalan, nəhayət bu yaxınlarda müzəffər ordumuz tərəfindən azad olunan Şuşada zəngin bədən tərbiyəsi və idman ənənələrinə malik olan, həmişə mötəbər idman yarışlarında yaşadığı məkanı layiqincə təmsil edən idmançılar yetişib. Təəssüf ki, onların arasında Xəlil Məmmədov, Niyazi Hacıbəyov, Tofiq Abbasov, Əfqan Səfərov, Tofiq Bəhramov, Əhəd Əliyev, Eldar Əzimov, Fərəməz Rüstəmov-Ağayev, Hidayət Yusifov, Zakir Kazımov, Camal Bəylərov, Süleyman Novruzov, Zakir Məmmədov, Namiq Babayev və başqaları artıq əbədiyyətə qovuşublar. Onlar təəssüf ki, Şuşanın azadlıq gününü görə bilmədilər. Adını çəkdiyim idman mütəxəssislərinin hər biri müxtəlif peşə sahibləri idilər. Lakin onlar öz işlərində olduğu kimi bədən tərbiyəsi və idmanda da fərqlənirdilər.





Əgər tarixə nəzər salsaq görərik ki, 1960-1980-cı illərdə də Şuşada bədən tərbiyəsi və idman daha sürətlə inkişaf edib. Belə ki, həmin illərdə şəhərdə idman qurğuları tikilməyə başladı. Əgər 60-cı illərə qədər Şuşada 1 idman zalı var idisə, sonrakı illlərdə idman zallarının və meydançalarının sayında xeyli artım nəzərə çarpdı. Yeni tikilmiş 1 nömrəli orta məktəbin idman zalı və meydançası, 4 nömrəli orta məktəbin 1 idman zalı və meydançası, 2 nömrəli orta məktəbin 1 idman zalı və meydançası, Kənd Təsərrüfatı Texnikumunun 1 idman zalı və meydançası, Şuşa pedaqoji məktəbinin idman zalı və meydançası, Şuşa meşə sağlamlıq məktəbinin 1 idman zalı və meydançası, şəhərin mərkəzində yerləşən voleybol meydançası (sonralar həmin 53 metrlik meydança kiçikyaşlı futbolçulara təhvil verildi - Ə.N). 3 nömrəli orta-internat məktəbinin idman zalı və meydançası, Malıbəyli kənd orta məktəbinin idman zalı və meydançası, Zarıslı kənd məktəbinin idman zalı və meydançası buna sübut idi. Həmin qurğuların istifadəyə verilməsindən sonra burada idmanın müxtəlif növləri üzrə məşqləri keçirilməyə başladı. Şuşada güləş, voleybol, futbol, basketbol, stolüstü tennis, atletika, şahmat və dama idman növləri fəaliyyət göstərirdi. Tezliklə bu sahədə canlanma yarandı, əhali arasında kütləvilik artdı.

Şuşada tez-tez bu idman növü üzrə yarışlar keçirilirdi. Məktəb, məhəllə, rayon, şəhər, o cümlədən vilayət və Respublika birincilikləri yüksək səviyyədə təşkil edilirdi. Bu yarışlarda da şuşalı idmançılar həmişə yüksək yerlər uğrunda mübarizə apararaq, Şuşanın idman şərəfini layiqincə qoruyurdular.

## Azərbaycan idmanını dünyada məşhurlaşdıran şuşalı idmançılar

*Tofiq Bəhramov:*

- O, dünyanın ən güclü yan xətt hakimlərindən biri idi. 1966-cı ildə İngiltərədə təşkil olunan futbol üzrə VIII Dünya çempionatında yan hakim olaraq, mərkəz hakiminin səhvini düzəltmiş, vurulan mübahisəli topun qapı xəttindən keçdiyini yəqin görüb, əlindəki bayraqla mərkəz dairəni göstərmişdir. Ona görə də Böyük Britaniya kraliçası II Yelizaveta tərəfindən "Qızıl İlahə"nin kiçik modelinə və "Qızıl fit" mükafatına layiq görülmüş, çempionatın ən ədalətli hakimi adını almışdır.

*Eldar Əzimzadə:*

- O, 1980-cı ildə Moskvada keçirilən XXII Yay Olimpiya oyunlarında futbol yarışlarının final qarşılaşmasında (ADR-Çexoslovakiya) mərkəz hakimi olmuşdur. O, oyuna yüksək səviyyədə hakimlik etdiyi üçün "Qızıl medal" və diplomla təltif olunmuşdur.

*Tofiq Abbasov:*

- Basketbol üzrə keçmiş SSRİ-nin əməkdar məşqçisi, Ümumittifaq və beynəlxalq dərəcəli hakim, professor.

*Cavad Qurbanov:*

- Qılıncoynatma üzrə 11 qat Azərbaycan çempionu, ümumittifaq və beynəlxalq dərəcəli hakim, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi, professordur.

*Əfqan Səfərov:*

- Atletika üzrə keçmiş SSRİ-nin əməkdar məşqçisi, Ümumittifaq dərəcəli hakim.

*Zakir Kazımov:*

- 1963-cü ildə ağırlıqqaldırma üzrə Respublika dərəcəli hakim, 1973-cü ildə Ümumittifaq dərəcəli hakim, 1987-ci ildə beynəlxalq dərəcəli hakim, 1991-ci ildə Ümumittifaq bədən tərbiyəsi və idman əlaçısı, 1992-ci ildə Azərbaycanın əməkdar məşqçisi, 1998-ci ildə Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman əlaçısı kimi fəxri adlara yiyələnib. Beynəlxalq dərəcəli hakim kimi Polşa, keçmiş Çexoslovakiya, İran, Türkiyə və Yunanıstanda hakimlik edib.

*Rasim Rəsulov:*

- Yunan-Roma güləşi üzrə ilk azərbaycanlı SSRİ çempionu olub, Beynəlxalq dərəcəli idman ustası fəxri adına yiyələnib.

*Rafiq İmanov:*

- Boks üzrə SSRİ-nin fəxri idman ustası, beynəlxalq dərəcəli hakim.

*Adil Dadaşov:*

- Sərbəst güləş üzrə SSRİ birinciliyinin mükafatçısı, idman ustası.

## 28 il ərzində Şuşa idmanı

Hazırda Şuşanın Gənclər və İdman İdarəsi, eni zamanda onun nəzdində Uşaq Gənclər İdman Məktəbi fəaliyyət göstərir. Rayon Təhsil Şöbəsi nəzdində Uşaq Gənclər İdman-Şahmat Məktəbi 53-ildir ki, öz işini davam etdirir. Bir daha xatırladaq ki, işğaldan əvvəl Şuşada 9 idman zalı və 10 idman meydançası var idi. O cümlədən 1 şahmat məktəbi və 1 şahmat klubu fəaliyyət göstərirdi. Müxtəlif idman növləri üzrə keçirilən məşqlər orta məktəblərin idman zallarında təşkil olunurdu.

Bu müddət ərzində əslən şuşalı olan ailələrdə böyüyən idmançılar Bakıda və digər bölgələrdə öz fəaliyyətini davam etdirib. Həmin idmançılar müxtəli idman növləri üzrə keçirilən yarışlarda uğurla çıxış ediblər. Şuşanın Yapon Hacıyev (kikboksinq üzrə üzrə ikiqat dünya çempionu), Ruslan Zeynalov (kikboksinq üzrə dünya çempionu), Rəmzi Məmmədov (karate üzrə Avropa birinciliyinin gümüş mükafatçısı), Seymur Heydərov (cüdo üzrə dünya birinciliyinin gümüş mükafatçısı), Elnur Əliyev (paralimpiya üzrə Avropa birinciliyinin gümüş mükafatçısı), Seyhun Ağayev (bilyard üzrə Avropa birinciliyinin gümüş mükafatçısı), Zaur Muradov (cüdo üzrə idman ustası), Anar Quliyev (güləş üzrə idman ustalığına namizəd), Gülbəniz Babayeva, Aidə Əliyeva, Kərəm Quliyev və Şakir Mədətov (hamısı I dərəcəli voleybolçu) kimi istedadlı idmançıları var. Bu idmançıların sayı günü gündən artmaqdadır. Tezliklə həmin idmançılar işğaldan azad olunan doğma Şuşada öz fəaliyyətinə başlayacaq, yüzlərlə yeniyetmə və gəncin idmançı kimi yetişməsində öz qüvvə və bacarığını əsirgəməyəcək.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər idman-Şahmat məktəbinin direktoru***

# Vüqar Həşimovun xatirəsi anılıb

Azərbaycanın məşhur şahmatçısı, Avropa çempionu qrossmeyster Vüqar Həşimovun vəfatının yeddinci ildönümü ilə əlaqədar doğmaları, yaxınları ilə birgə yeniyetmə şahmatçılar da mərhum qrossmeysterin məzarını ziyarət edib, xatirəsini anıblar.

V.Həşimovun ilk məşqçisi Anar Allahverdiyev anım mərasimində çıxış edərək onun qısa, lakin uğurlu karyerasından danışıb. Qeyd olunub ki, hər ilin aprelində Şəmkirdə Vüqar Həşimovun xatirəsinə həsr olunan nüfuzlu beynəlxalq şahmat turniri keçirilir.



"Vüqar Həşimov" şahmat klubunun üzvləri, yeniyetmələrin şahmat olimpiadasının qalibləri Aydın Süleymanlı və Əhməd Əhmədzadə V.Həşimovun həyat yolunun gənclərə nümunə olduğunu bildiriblər.

Mərhum şahmatçının atası Qasım Həşimov Vüqarın hər zaman Azərbaycanın idman şərəfini layiqincə qorumağa çalışdığını deyib.

# Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında videodərslərin tədrisinə başlanılıb

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) "İdman menecmenti və kommunikasiya", "Məşqçilik", "Bədən tərbiyəsi və idmanda reabilitasiya", "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" üzrə ixtisaslaşan tələbələrin bilik və bacarıqlarının artırılması istiqamətində daha bir yenilik edib.




Akademiyanın nəzdində fəaliyyət göstərən Multimedia mərkəzində (Tədris studiyası) tədris olunan fənlər üzrə qısa müddətdə videodərslər hazırlanaraq tələbələrin istifadəsinə verilib. Bütün kafedralar üzrə professor-müəllim heyəti tərəfindən keçirilən dərslərdə toxunulan əsas mövzulara dair mühazirələr slayd formatda təqdim olunub. Artıq 70-dən çox videodərs hazırlanaraq Akademiyanın rəsmi "YouTube" kanalına hissə-hissə yüklənilir. Bununla da tələbələr mövcud karantin şərtləri ilə əlaqədar onlayn dərslərdə iştirak edərək yeni biliklərə yiyələnirlər.

Qeyd edək ki, bu resurslardan Akademiyanın tələbələri ilə yanaşı, idman ixtisasını seçən, idman sahəsində biliklərini artırmaq istəyən şəxslər də istifadə edə bilərlər.

— Bizim müsahibə —

Müharibə mövzusunda söhbət düşərkən, insanları savaşa səsləyən qəhrəmanlıq mahnıları da yada düşür. Çoxlarımız dillər əzbəri olan bu mahnıları eşitsək də, onların müəlliflərini bəlkə də tanımırıq. Ötən əsrin 90-cı illərində, Vətənimizin başı üzərində qara buludlar dolaşan vaxtda neçə-neçə vətənpərvərlik mahnıları yazıldı. İnsanları mərdliyə, şücaətə səsləyən bu mahnılar dillər əzbəri oldu. Onların arasında “İgid əsgər, möhkəm dayan”, “Vətən əmanəti”, “Cənab leytenant” kimi mahnıları xüsusi qeyd etmək olar. Adı çəkilən bu şedevr mahnıların müəllifi ixtisasca həkimdir. Söhbət Şahin Musaoğludan gedir. O, bir tərəfdən əsgərlərin yaralarını sağaldır, digər tərəfdən də mahnıları ilə onların ruhunu qidalandırır, mənəvi güc verir. Azərbaycan Yazıçılar Birliyinin Hərbi Vətənpərvərlik Komissiyasının sədri Şahin Musaoğlu ilə müsahibəni oxucularımıza təqdim edirik.



# Şahin Musaoğlu:

## “Ola bilər ki, “Zəfər marşı”nı bir uşağın, şəhidin və ya şəhid anasının dilindən yazım”

***- Şahin müəllim, istərdik söhbətimizə xalqımızın 44 günlük haqq mübarizəsinin sonunda qazandığı zəfər təəssüratları ilə başlayaq. 30 il həsrət qaldığımız əzəli torpaqlarımız Ali Baş Komandanımızın və müzəffər Ordumuzun sayəsində geri qaytarıldı. Sizcə, 30 ildən sonra Qarabağ bizi bağışladımı?***

- Bu, bizim üçün çox böyük qələbədir. İllərlə böyük kürsülərdən bu məsələnin hərbi yolla həlli yoxdur deyənlərə 44 gün ərzində bunun əksini isbat etdik. Biz bir xalq olaraq bu 30 illik dövrün ağır sınağından şərəf və ləyaqətlə çıxdıq. Mənəvi gücümüzün, ruhumuzun nəyə qadir olduğunu, əxlaqi keyfiyyətimizi dünyaya göstərdik. Birlik, bərabərlik, həmrəylik necə olur, onu hər kəsə nümayiş etdirdik. Ən əsası odur ki, biz qəhrəman xalq olduğumuzu bütün dünyaya sübut etdik. Qələbə bizi, biz də qələbəni qazandıq. Xalq olaraq 30 il ərzində, xüsusən də bu 44 gün ərzində apardığımız mübarizə göz önündədir. Hesab edirəm ki, Qarabağ bizi bağışladı. Biz Qarabağı qazanmağımızla yanaşı, Qarabağ da bizi qazandı.

***- Siz ölkəmizdə həm hərbi-vətənpərvərlik mövzusunda mahnıların müəllifi, həm də həkim kimi tanınırsınız. Maraqlıdır, iki fərqli baxış bucağı bir zehində necə yuva qurub?***

- Həkimlik sənəti bizdə irsidir. Belə ki, anam, dayım, xalam və babam həkim olublar. Həkimlik insandan fədakarlıq, xilaskarlıq, mərhəmət tələb edir. Fikrimcə, istər bəstəkarlar, istərsə də yazıçılar bəşəriyyətin ağrı-acılarına ortaq olmalıdırlar. Əslində, biz həkim və bəstəkar olaraq, müharibəyə meydan oxuyan insanlarıq. Biz sülh uğrunda, qan-qadanın əleyhinə olaraq savaşırıq. Amma bu gün bizim həkim və bəstəkar bir amalımız var idi. O da torpaqlarımızı düşmənlərdən azad etmək və bu yolda istənilən maneəni şərəf və qürurla aradan qaldırmaq.

***-90-cı illərdə olduğu kimi, bu müharibədə də cəbhədə yaralı hərbçilərimizə xidmət etdiniz.***

- Bu mənim peşə borcumdur. Biz həkimlər ilin əvvəlindən koronavirusla mübarizədə ön cəbhədə idik. Vətən müharibəsi başlayan gündən isə bizim üçün əsas cəbhə açıldı. Arxa cəbhədə virusdan əziyyət çəkənlərin, ön cəbhədə isə Vətən müharibəsində iştirak edən yaralı hərbçilərimizin sağlamlığının keşiyində dayanırdıq.

***- Maraqlıdır, bir həkim kimi sizdə hərbi-vətənpərvərlik mövzusunda yazmaq eşqi necə yarandı?***

- Həmin illərdən təxminən 30 il vaxt keçir. Deməli olar ki, gəncliyimin ən məhsuldar illəri idi. İnstitutu yeni bitirmişdim. İki-üç il idi ki, həkim kimi fəaliyyət göstərirdim. Qarabağ müharibəsi başladı və bir də gözümü açdım ki, bu hadisələrin mərkəzindəyəm, orduya yazılmışam. Tez-tez cəbhə bölgələrinə gedir, əsgərlərimizlə görüşlər keçirirdim. Orada ilkin tibbi yardım göstərməklə yanaşı, əsgər və zabitlərimizdən müsahibələr də götürürdüm. Beləliklə, tale elə gətirdi ki, bu mövzuya müraciət etdim. Mən bunu özüm üçün tanrının bir lütfü hesab edirəm.

***- “İgid əsgər, möhkəm dayan”. Belə möhtəşəm türkünün yaranması necə baş verdi?***

- 1991-ci ildə I Batalyonun Şəhidlər Xiyabanında andiçmə mərasimi oldu və onları cəbhəyə yola saldıq. Həmin mahnının sözlərini də elə o hisslərin və təəssüratların altında yazdım. Əslində mahnının mətnini musiqi əsəri üçün fikirləşməmişdim. Sadəcə olaraq, həmin təəssüratların altında özüm üçün belə bir şeir yazmışdım. Amma bu yazdığım mətn məni qane etmədi. Fikir və düşüncələrimi sətirlərdə tam ifadə edə bilmədim. Dəfələrlə mətndə düzəlişlər etsəm də, heç bir fayda vermədi. Sonra bu mətnə musiqi bəstələməyi düşündüm. Bununla sanki rahatlıq tapdım. Çünki anlatmaq istədiklərimi musiqi vasitəsi ilə ifadə edə bildim. Musiqinin böyüklüyü də elə bundadır ki, insan sözlə çatdıra bilmədiyi fikirlərini, duyğularını musiqi ilə ifadə edir. Beləliklə, “İgid əsgər, möhkəm dayan” mahnısı istər poeziyada, istərsə də musiqidə təməl daşım oldu.

***- Yəqin ki, razılaşarsınız, sizin mahnılarınız sanki bir-birini tamamlayır.***

- “İgid əsgər, möhkəm dayan” mahnısından sonra, “Çağırır Vətən” mahnısını yazdım. Bu mahnı 1992-1993-cü illərin ən ağır, şiddətli döyüşləri zamanı yazılan musiqi əsəridir. Ümumiyyətlə, mənim mahnılarımda bir nisgil, kədər var. İndi mahnı yazmaq çox asandır. Çünki indi xalqımız, dövlətimiz və Ordumuz birlik nümayiş etdirir. Yaradıcı insanlar da bundan ilhamlanaraq yeni şeirlər yazır, mahnılar bəstələyirlər. O dövrdə isə hər şey tam əksinə idi. Ordumuz təzə-təzə formalaşırdı. Xainlik, satqınlıq və təşviş var idi. Bizim borcumuz o ağır günlərdə ön və arxa cəbhədə olan insanları ruhlandırmaq idi. Bütün bunların fövqündə dayanıb, o mahnıları yazmaq insandan cəsarət tələb edirdi. “Çağırır Vətən”dən sonra yazdığım “Ağ ümid” mahnısını isə ön və arxa cəbhədə fədakarlıq göstərən tibb işçilərimizə həsr etmişəm. Dördüncü mahnım “Vətən əmanəti” idi. Həmin mahnıda əvvəlki streotiplərdən fərqli olaraq, bu Vətənin bizə babalarımızdan əmanət olmasını gənclərimizə xatırladırdım. Bundan sonra Seyidağa Mövsümlünün xatirələri əsasında “Birinci batalyon” mahnısını yazdım. Qeyd edim ki, Seyidağa Mövsümlünün Vətən qarşısında xidmətləri çox böyük olub. O, xalq hərəkatını, 20 Yanvar faciəsini, Xocalı soyqırımını, bütövlükdə Qarabağ müharibəsini lentə alan ilk operatorlarımızdandır. Sonra “Qalx Azərbaycan” adlı əsər yazdım. Lakin sonradan onun adını dəyişib “İstiqlal marşı” qoydum. Onun ardınca isə “Cənab leytenant”, “Səma şahinləri” kimi mahnılar yarandı.

***- Bəs mahnılarınızın əvəzolunmaz ifaçısı olan Şəmistan Əlizamanlı ilə tanışlığınız necə yarandı?***

- Şəmistan Əlizamanlı ilə tanışlığım Müdafiə Nazirliyinin Tibb İdarəsində işlədiyim dövrlərə təsadüf edir. Onunla yaxın münasibətimiz Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin sayəsində oldu. Şəmistan Yusif Mirzəyevin səhhətini yoxlamağa gəlirdi. Orada tez-tez görüşürdük. Sonradan Şəmistanla birgə yaradıcılığımız başladı. Əvvəlcə, “İgid əsgər, möhkəm dayan” mahnısını təqdim etdik. Həmin mahnını Yusif Mirzəyevə həsr etsək də, təəssüf ki, o, şəhid oldu və bu mahnının studia variantını görmədi. Bundan sonrakı əsərlərimi də məhz Şəmistan Əlizamanlının səsinə uyğun yazdım. Biz çox yaxın dost idik. Buna görə də, birgə fəaliyyətimiz uzun müddət davam etdi.

***- Dostluqdan söz düşmüşkən, bildiyimizə görə sonralar Şəmistan müəllimlə aranızda bir qədər soyuqluq yarandı. Yəqin ki, həmin mehribanlığınızı gözü götürməyənlər oldu.***

- Əslində, elə bir soyuqluq olmayıb. Bu, sadəcə, bizi sevməyənlərin, yaradıcılığımızı istəməyənlərin fantaziyasıdır. Bir müddət musiqi yaradıcılığına fasilə verdim. Şəmistan Əlizamanlı isə yaradıcılığını davam etdirdi. Yeni mahnılar yazmadığıma görə, Şəmistan da digər bəstəkarlarla əməkdaşlıq etdi. O, özü də mahnılar bəstələyir. Biz tez-tez tədbirlərdə görüşürük, münasibətimiz də normaldır. Sadəcə, birgə yaradıcılığımız davam etmir.

***- Bəs yenidən iş birliyiniz olacaqmı?***

- Əgər hansısa bir əsər yazacağamsa və orada onun səsinə ehtiyac olacaqsa, sözsüz ki, o mahnını Şəmistan Əlizamanlı ilə birgə ərsəyə gətirəcəyəm. Bilmək olmaz, bəlkə, “Zəfər marşı”nı elə birlikdə yazdıq.

***- İnşallah. Yeri gəlmişkən, “Zəfər marşı” ilə bağlı ilkin düşüncələr formalaşıbmı?***

- Düzünü desəm, bu qələbə əsərini hələ yazmamışam. Qısa zaman ərzində ürəyimizdən keçən təəssüratları bir musiqi əsərinə çevirmək çox çətindir. Buna bir qədər zaman lazımdır. Ola bilər ki, “Zəfər marşı”nı bir uşağın, şəhidin və ya şəhid anasının dilindən yazım. Bu yaradıcılıq prosesindən asılı olacaq. Bu yaxınlarda “Zəfərin mübarək Azərbaycan” adlı yeni şeir yazmışam. Bu şeirə musiqi bəstələdim. Bundan əlavə paralel olaraq, hörmətli yazıçımız Anar müəllimin “Mən gedirəm Zəngilana” və Yunus Oğuzun “Dövlət mənəm” adlı şeirlərinə də musiqi bəstələyirəm. Yaxın günlərdə bu mahnıları xalqımıza təqdim edəcəyik.

***- Qeyd etdiniz ki, bir müddət yaradıcılığınıza fasilə vermisiniz. Bunun səbəbi nədə idi?***

- Düşünürdüm ki, “İgid əsgər, möhkəm dayan” mahnısından sonra elə bir əsər yazmalıyam ki, əvvəlki yazdıqlarımı ötüb keçsin. İçimdə bir qorxu var idi ki, yazdığım yeni əsərlər onlardan zəif ola bilər. Bu baxımdan da 10 ildən çox müddət ərzində daxilimdə özümlə savaş apardım. Əslində, məni hər zaman düşündürən bir məsələ olub. Müəyyən bir yaşdan sonra ilkin şöhrəti adlayıb, sənətə ikinci dəfə gəlmək, yəni özümü ötüb keçmək... Hər zaman istəmişəm ki, yaradıcı insan kimi, özümdə ikinci nəfəsi tapım. Hesab edirəm ki, daxilimdəki o əvvəlki məni üstələyə bildim.




***- Bəs “İgid əsgər, möhkəm dayan” əsərini hansı mahnınızla ötüb keçdiyinizi düşünürsünüz?***

- Hərdən elə olur ki, hansısa əsərin üzərində daha çox işləyirsən və ondan gözləntilərin çox olur. Amma ictimaiyyət onu gözlədiyin kimi qəbul etmir. Bu gün “Vətən əmanəti” mahnım digərlərindən daha çox səslənir. Tofiq Fikrətin “Millət şərqisi” şeirində diqqətimi çəkən “Can qardaşı, qan qardaşı, şan qardaşıyıq biz” sözlərinə yazılan mahnım da bu gün ölkəmizdə və Cənubi Azərbaycanda çox sevilir. Mən mahnılarımı, əsərlərimi öz övladım hesab edirəm. Ona görə də, mahnılarımın arasında fərq qoymuram. Hər şey təqdimatdan asılıdır. Bəzən bir mahnının sevilməsi üçün illər lazım olur. Məsələn “İgid əsgər, möhkəm dayan” mahnısı yazılan kimi şöhrət qazandı. Çünki həmin vaxt bir boşluq var idi və o mahnı həmin boşluğu doldurdu. Amma “Cənab leytenant” mahnısı isə axtardığı şöhrətini bir müddətdən sonra tapa bildi.

***- Şahin müəllim, sizin döyüşə səsləyən mahnılarınızdan ruhlanıb, cəbhəyə yollanan minlərlə gənclərimiz var. Həmin gənclərin şəhid olması və yaralanması xəbərini eşidəndə hansı hissləri keçirirsiniz?***

- Belə hadisələr dəfələrlə olub. Hətta Müdafiə Nazirliyində çalışdığımız illərdə bir qadın Şəmistan Əlizamanlıya yaxınlaşaraq dedi ki, “Ver mənim oğlumu. Oğlum sənin ifa etdiyin “İgid əsgər, möhkəm dayan” mahnısından sonra ruhlanaraq, müharibəyə getdi və şəhid oldu”. Şəmistan o qadına dedi ki, “mən bu mahnının ifaçısıyam”. Mən o qadını və Şəmistanı onda daha yaxşı anladım. Başa düşdüm ki, biz çox böyük məsuliyyətin altına girmişik. Amma bu həyatdır, biz olmasaq da bir başqası bu çağırışı etməli idi. Təəssüf ki, müharibə şəhidsiz olmur. Amma bütün bunlar insanın məsuliyyətini daha da artırır, özündən asılı olmayaraq, tez yaşlanırsan.

***- Necə düşünürsünüz, xalqın bugünki milli iradəsi, vətənpərvərlik ruhu 90-cı illərdən nə ilə fərqlənir?***

- İstənilən müharibə hər zaman istər döyüş vasitələri və taktikasına görə, istərsə də sosial tərəfinə görə digərlərindən fərqlənir. Apardığımız birinci və ikinci Qarabağ müharibələri də, bu baxımdan tam fərqlidir. Əlbəttə, 30 il, böyük zaman kəsiyidir. Amma bu 30 il ərzində biz toparlanıb, iradəmizi ortaya qoya bildik. Bu gün biz həm hərbi, psixoloji, həm də siyasi və diplomatik tərəfdən üstünlüyü ələ ala bilmişik.

***- Şahin müəllim, heç Olimpiya Hərəkatından və idmançılarımızın uğurlarından bəhs edən mövzulara toxunmusunuzmu?***

- Düzdür, hələ ki, bu mövzu ilə bağlı hər hansısa bir əsər yoxdur. Amma böyük məmnuniyyətlə belə bir əsər yazmaq istəyərdim. Çünki idmançılar da döyüşürlər, Azərbaycanın bayrağını yüksəklərə qaldırırlar. Onlar da bizim fəxrimizdir, qürurumuzdur. Ətrafımda idmançıların az olmasından irəli gələn səbəblərə görə, bu mövzuya müraciət etməmişəm. Amma bildiyimə görə, bugün Vətən müharibəsində qazanılan uğurlarda idmançılarımızın da əməyi az deyil. İnşallah bu müsahibədən sonra böyük məmnuniyyətlə idmançılarımız haqqında da gözəl əsər yaradıq.

*Azər Əlizadə*

# FUTBOL




## İtaliya

- “Yuventus” Paulo Dibala ilə yeni müqavilə bağlamaga hazırlaşır.

Turin təmsilçisi 27 yaşlı hücumçu ilə sözləşməni uzatmaq üçün danışıqları davam etdirir. Klub argentinalı oyuçuya illik 10 milyon avro maaş olmaqla 2025-ci ilin yayına qədər müddəti olan müqavilə təklif edib. Tərəflər razılaşsa, bonuslar da nəzərə alınmaqla onun ümumi qazancı 12 milyon avro təşkil edəcək.

Qeyd edək ki, Paulo Dibalanın “Yuventus”la hazırkı müqaviləsinin müddəti 2022-ci ilin yayına qədərdir.

## Türkiyə

Türkiyənin “Qalatasaray” klubunun hücumçusu Radamel Falkao karyerasını ABŞ-da davam etdirməyə hazırlaşır. 34 yaşlı forvard “İnter Mayami” klubu ilə razılıq əldə edib.



# Avropadan transfer xəbərləri

## İspaniya

Madrid “Real”ının üç futbolçusu - yarımmüdafiəçi İsko, müdafiəçi Alvaro Odriosola və hücumçu Luka Yoviç qış transfer pəncərəsində Madrid təmsilçisini tərk edə bilər.

İskonun artıq klub rəhbərliyinə daha çox oynayacağı bir komandaya keçmək istədiyini bildirdiyi vurğulanıb. İspan futbolçu ilə “Yuventus”, “Mançester Siti” və “Napoli” maraqlanır. “Real”ın oyunçunu 50 milyon avroya satmağa hazır olduğu qeyd olunub.

Odriosolanın yenidən “Bavariya”ya icarəyə göndərilə biləcəyi, Luka Yoviçin isə “Ayntraxt”a qayıda biləcəyi iddia olunub.

* * *

- “Barselona” Karles Alenanı icarəyə verib. 23 yaşlı yarımmüdafiəçi mövsümün sonuna qədər “Xetafe”də çıxış edəcək. Qeyd edək ki, ispaniyalı futbolçunun “Barselona” ilə müqaviləsi 2022-ci ilin yayında başa çatacaq.

- “Barselona” İngiltərənin “Lester” klubunun yarımmüdafiəçisi Sidneyin transferində maraqlıdır. Klublar arasında bununla bağlı ilkin danışıq da olub. Anlaşmaya əsasən, 19 yaşlı orta sahə oyunçusu mövsümün sonunda yeni müqavilə imzalamağa razılıq verməsə, o zaman ilk olaraq məhz “Barselona”nın təklifi nəzərdən keçiriləcək. “Lester”in U-23 komandasında çıxış edən oyunçunun müqavilə müddəti 2022-ci ilin yayına qədərdir.



## İngiltərə

“Liverpul” “Bavariya”nın futbolçusu David Alabaya müqavilə təklif edib.

28 yaşlı müdafiəçinin “qırmızılar”a keçəcəyi təqdirdə, illik 10 milyon avro maaş alacağı qeyd olunub. Müqavilənin digər detalları haqda məlumat verilməyib.

Qeyd edək ki, Alaba bu mövsüm 13 oyuna çıxaraq, 1 qol vurub. Futbolçunun Münhen təmsilçisi ilə hazırkı sözləşməsinin müddəti 2021-ci ilin yayına qədərdir.

* * *

“Liverpul” futbolçusu Liam Millarla müqaviləni yeniləyib. Klub onunla müqavilə imzaladıqdan sonra 21 yaşlı hücumçunun mövsümün sonunadək “Çarlton”a (İngiltərə) icarəyə göndərib.

Qeyd edək ki, kanadalı oyunçu bu mövsüm “Liverpul”un ehtiyat komandasında oynayıb.

* * *

İngiltərənin “Mançester Yunayted” klubu Odion İqalo ilə vidalaşır.

İcarə müddəti yanvarın 31-də başa çatacaq nigeriyalı futbolçu Premyer Liqanı tərk edir.



Müqavilə ilə Çinin “Şanxay Şenxua” klubuna məxsus olan forvard karyerasını digər Asiya ölkələrində davam etdirə bilər. O, Qətər və Səudiyyə Ərəbistanından aldığı təklifləri nəzərdən keçirir.

İqalonun Mançester təmsilçisindəki durumu Edinson Kavaninin transferindən sonra korlanıb. Daha çox uruqvaylıya güvənən ingiltərəlilər Odionun xidmətindən imtina edib.

Qeyd edək ki, forvard cari mövsümdə cəmi 4 dəfə meydana çıxıb.

* * *

“Arsenal” futbolçusu Vilyam Salibanı icarəyə verib. 19 yaşlı müdafiəçi Fransanın “Nitsa” klubuna keçib. Saliba bu ilin iyul ayına qədər Liqa 1 klubunda çıxış edəcək.

Qeyd edək ki, fransız müdafiəçi 2019-cu ilin yayında “Sent-Etyen”dən 30 milyon avro qarşılığında “Arsenal”a keçib.




- “Yuventus” qış transfer pəncərəsində heyətinə yeni hücumçu cəlb etmək istəyir.

Komanda azad agent olan Qratsiano Pelle ilə müqavilə imzalamaq niyyətindədir.

Qeyd edək ki, “Şandun Lunen”də (Çin) çıxış edən 35 yaşlı hücumçu karyerası ərzində “Sauthempton”, “Feyenoord”, “Sampdoriya” kimi komandalarda da çıxış edib

- “Yuventus” klubu müdafiə xəttini gücləndirmək niyyətindədir. Turin təmsilçisi “Cenoa”ya icarəyə verdiyi Luka Pelleqrinini geri qaytarmağa qərar verib.

21 yaşlı sol cinah müdafiəçisi “Kalyari”yə transfer olunacaq Canluici Frabottanı əvəzləməlidir.

* * *

İtaliyanın “İnter” klubu sabiq futbolçusu Ederi heyətinə qaytarır. A seriyası təmsilçisi 34 yaşlı hücumçunun xidmətində maraqlıdır. Milanlılar artıq futbolçunun agenti ilə də danışıqlara başlayıb. Ederin şərəfini qoruduğu “Szyansu



Sunin” klubu da onun gedişinə razılıq verib. Çünki illik qazancı 5 milyon avro təşkil edən futbolçunun maaşı Çin çempionatındakı limiti aşır. Bu limit 3 milyona bərabərdir.

* * *

Madridlilərin təklifi oyunçunun müqavilə ilə məxsus olduğu İtaliya “Napoli”sini qane etməyib. “Atletiko” 27 yaşlı forvardın keçidi müqabilində 7 milyon avro təklif edib. Bununla razılaşmayan italiyalılar qarşı tərəfdən 15 milyon avro tələb ediblər. Bundan əvvəl “Napoli” rəhbərliyi bu məbləğin 10 milyonunu nağd istəyir.

* * *

İtaliyanın “Atalanta” klubu Yoahim Mehlenin transferini rəsmiləşdirib.

Belçika “Genk”indən 8 milyon avroya transfer olunan müdafiəçinin rəsmi təqdimatı olub.

Onunla müqavilə 2025-ci ilə qədər nəzərdə tutulub. İtaliyada “transfer pəncərəsi” yanvarın 4-də açıldığından keçidi öncədən razılaşdırılan Mehle indi Berqamo təmsilçisinin üzvünə çevrilib.

Qeyd edək ki, bu mövsüm 9 oyunda 5 qol, 2 məhsuldar ötürmə ilə yadda qalan Radamel Falkaonun yüksək məvacibi səbəbindən “Qalatasaray” onu transferə çıxarıb.

* * *

İngiltərənin “Çelsi” klubunun yarımmüdafiəçisi Denni Drinkuoter karyerasını Türkiyədə davam etdirəcək. 31 yaşlı futbolçu “Kasımpaşa”ya keçib.

Super Liqa təmsilçisi İngiltərə millisinin sabiq üzvünü mövsümün sonuna qədər icarəyə götürüb. Drinkuoter yeni komandası ilə müqavilə bağlamaq üçün tezliklə İstanbula yollanacaq. Qeyd edək ki, Denni Drinkuoter “Çelsi”yə 2017-ci ildə “Lester”dən keçib.

* * *

Türkiyənin “Beşiktaş” klubu Mario Mandzukiçi transfer etmək niyyətindədir.



2020-ci ilin yayından klubsuz olan forvard azad agent statusuna malikdir. “Beşiktaş” onunla 2022-ci ilin yayına qədər nəzərdə tutulan müqavilə imzalamaq istəyir.

Qeyd edək ki, Mandzukiç İspaniya “Selta”sının da maraq dairəsindədir.

* * *

Arsenal”ın yarımmüdafiəçisi Məsut Özil “Fənərbağça”nın formasını geyinəcək.

Özil İstanbul təmsilçisi ilə 3,5 illik müqavilə imzalamağa razılıq verib.

“Arsenal” da müqavilə müddəti mövsümün sonuna qədər olan oyunçusunu yola salmaqda maraqlıdır. Hətta “topçular”ın onuq son 6 aylıq maaşın yarısını qarşılamağa hazır olduğu da vurğulanıb.



# Uşaq paralimpiya hərəkatının regionlarda inkişafına dair işlər davam etdirilir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”na uyğun olaraq Milli Paralimpiya Komitəsi (AMPK) ölkəmizdə uşaq paralimpiya hərəkatının inkişafına dair müxtəlif layihələrin həyata keçirilməsini davam etdirir.***

AMPK-nın mətbuat xidmətindən “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, yanvarın 8-də Şahdağ Turizm Mərkəzində “Uşaq paralimpiya hərəkatının inkişafı” layihəsi çərçivəsində idmançılar və onların valideynləri ilə görüş keçirilib.

Görüşdə komitənin prezidenti İlqar Rəhimov, “Şahdağ Turizm Mərkəzi” QSC-nin sədri Rodderiç Leffer və Qusar Rayon İcra Hakimiyyəti başçısının müavini Elman Mustafayev iştirak ediblər.

Tədbirdə İlqar Rəhimov ölkəmizdə uşaq paralimpiya hərəkatının inkişafının komitənin strateji istiqamətlərindən biri olduğunu qeyd edib: “Yarandığı gündən yüzlərlə fiziki məhdudiyyətli uşağı ətrafımıza toplaya bilmişik. Sevindirici haldır ki, övladlarını cəmiyyətdən gizlədən valideynlər bu gün artıq özləri bizə müraciət etməyə başlayıblar. Hesab edirəm ki, bu, bizim ən böyük qələbəmizdir”.

İ.Rəhimov, eyni zamanda, ölkəmizdə qış idman növlərinin inkişaf etdirilməsi ilə əlaqədar görülmüş işlərlə bağlı iştirakçılara məlumat verib və yaradılmış şəraitə görə Şahdağ Turizm Mərkəzinin rəhbərliyinə təşəkkürünü bildirib.

Rodderiç Leffer deyib ki, bir il əvvəl AMPK ilə imzalanmış Anlaşma Memorandumuna əsasən işlər davam etdirilir. Mərkəz qış idman növünün Azərbaycanda inkişaf etdirilməsi və uşaqlar üçün lazımı bütün şəraitin yaradılması üçün əlindən gələni edəcək.


## olimpnews.az - sizin saytınız




# Yığmamız Türkiyə və Moldova ilə birgə hazırlıq keçir

Qadın güləşi üzrə Azərbaycan milli komandası Türkiyənin İstanbul şəhərində təlim-məşq toplanışını davam etdirir. Yanvarın 4-dən start götürən hazırlıq prosesində kollektivimiz baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Türkiyə və Moldova millləri ilə birgə hazırlıq keçir. “Qorrion” hotelində məskunlaşan komandalar həm fiziki, həm də taktiki-texniki hazırlıq üzərində çalışır.

Qarşıdakı mühüm yarışlara, o cümlədən lisenziya turnirlərinə hazırlıq xarakteri daşıyan toplanış yanvarın 20-dək davam edəcək.

# Güləş yarışlarının təqvimində dəyişikliklər edildi

Dünya Güləş Birliyi (UWW) 2021-ci ilin yarış təqvimində dəyişikliklər edib. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə buna səbəb pandemiyanın daha da güclənməsidir. Daha əvvəl yanvarda keçirilməsi planlaşdırılan Matteo Pellikone turniri mart ayına təxirə salınıb. Reytinq xarakterli yarış martın 4-dən 7-dək İtaliyanın paytaxtı Romada keçiriləcək.

Fevralda təşkili nəzərdə tutulan Avropa çempionatı isə apreldə baş tutacaq. Aprelin 19-dan 25-dək Polşanın paytaxtı Varşavada qitənin ən güclü güləşçiləri müəyyənləşəcək. Varşavada reytinq xarakterli turnir də keçiriləcək. Bu yarış isə iyunun 8-13-də təşkil olunacaq.

Gələn ilin ilk lisenziya yarışı sayılan Avropa Olimpiya Təsnifat turniri öz vaxtında - martın 18-21-də Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək.

UNITED WORLD WRESTLING

Ancaq Dünya Olimpiya Təsnifat turniri daha əvvəl açıqlanan tarixdən bir həftə sonra baş tutacaq. Belə ki, Olimpiadaya son lisenziyaların veriləcəyi yarış mayın 6-dan 9-dək Bolqarıstanın paytaxtı Sofiyada reallaşacaq.

Qeyd edək ki, gələn ilin ilk beynəlxalq yarışları yanvarın ortalarında Fransa (Nitsa) və Xorvatiyada (Zaqreb) keçiriləcək Qran-Pri turnirləri olacaq.

# Zəka sahibimiz “Sarca” kuboku yarışında üçüncü yeri tutub



“Lichess.org” platforması vasitəsilə onlayn keçirilən “Sarca” kuboku yarışında Azərbaycan şahmatçısı Günay Məmmədzadə 3-cü yeri tutub. Namizəd şahmatçı kimi birbaşa final mərhələsində iştirak edən təmsilçimiz 9 turdan 6 xal toplayıb. Komandamızın digər üzvləri Gülnar Məmmədova 4 xalla 22-ci, Ülviyyə Fətəliyeva 3,5 xalla 28-ci pillədə qərarlaşıblar. Turnirin qalibi 7 xalla ukraynalı şahmatçı Yuliya Osmak olub. Qeyd edək ki, finalda 483 şahmatçı arasından seçilmiş ən güclü 25 oyunçu ilə yanaşı, həlledici mərhələdə iştirak etmək hüququ olan 10 namizəd şahmatçı da mübarizə aparıb. Rapid üzrə İsveçrə sistemi ilə keçirilən həlledici mərhələ 9 turdan ibarət olub.

# Arkadi Naydiç yığmamızla vidalaşdı



Azərbaycan Şahmat Federasiyası qrossmeyster Arkadi Naydiç ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verib. Bu barədə federasiyanın mətbuat xidmətindən məlumat verilib. Məlumatda qeyd edilib ki, Azərbaycan Şahmat Federasiyası kişi şahmatçılardan ibarət milli komandanın heyətində beş il çıxış edən qrossmeysterə təşəkkür edib və gələcək karyerasında uğurlar arzulayıb. Qeyd edək ki, Arkadi Naydiç 2015-ci ildən Azərbaycan yığmasının heyətində çıxış edib. O, 2017-ci ildə millimizin heyətində komandalar arasında Avropa çempionatında qızıl medal qazanıb.

# Onlayn şahmat turnirinə yekun vurulub

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) və İdea Şahmat Klubunun birgə təşkilatçılığı ilə “Yeni ildə yüksələn, bütöv, güclü Azərbaycan” devizi altında onlayn şahmat turniri keçirilib. Dörd kateqoriya üzrə keçirilən turnirdə uşaq, yeniyetmə və gənc şahmatçılar iştirak ediblər. Turnirin qaliblər mükafatlandırılıblar.

# Voleybolçularımız mövqeyini qorudu

Beynəlxalq Voleybol Federasiyası (FIVB) milli komandaların reytinq cədvəlini açıqlayıb. Qadın voleybolçulardan ibarət Azərbaycan yığması mövqeyini qoruyub. Belə ki, hesabında 127 xal olan millimiz 26-cı pillədə qərarlaşıb. Çin millisi 391 xalla siyahıya başçılıq edir. ABŞ 382 xalla ikinci, Braziliya 328 xalla üçüncüdür.

# Millimizin seçmə mərhələdəki oyunlarının təqvimi müəyyənləşdi

Kişi voleybolçulardan ibarət Azərbaycan millisinin yer aldığı Avropa çempionatının seçmə mərhələsinin “F” qrupunun təqvimi açıqlanıb. Komandalar birinci dövrədə Gürcüstan, ikinci dövrədə Monteneqroda mübarizə aparacaqlar. Yığmamız və meydan sahibi olan komandalarla yanaşı, Yunanıstan da bu qrupda qüvvəsini sınayacaq. Görüşlər 2021-ci il mayın 2-16-da keçiriləcək.

Komandamız ilk turda Monteneqro, ardınca Gürcüstan, sonra Yunanıstanla üz-üzə gələcək. İkinci dövrəyə də monteneqrolularla duellə başlayacaq yığmamız ardınca Yunanıstan, son turda Gürcüstanla görüşəcək.

# Basketbolçu oyun vaxtı koronavirusa yoluxduğunu öyrəndi

Milli Basketbol Assosiasiyasında (NBA) çıxış edən “Filadelfiya”nın oyunçusu Stet Karri koronavirusa yoluxub. 30 yaşlı basketbolçu qarşılaşma zamanı koronavirus testinin müsbət çıxdığını öyrənib.

Karri “Bruklin”ə qarşı mövsümün ilk 1/4 matçında koronavirusa yoluxduğunu bilib. Təcrübəli oyunçu ilk hissəni ehtiyatda keçirib, bundan sonra isə koronavirus testini alıb və dərhal arenadan ayrılaraq özünü təcrid edib.

Qeyd edək ki, qarşılaşma “Bruklin”in 122:109 hesabı ilə başa çatıb.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Əlixan Babayevə, atası

**Kamal İlyas oğlu Babayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi iş yoldaşları Əlixan Babayevə, atası

**Kamal İlyas oğlu Babayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Əlicabbar Həsən oğlu Muradovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Etibarsızdır

Gülarə Əliyeva adına 3 saylı Uşaq İncəsənət Məktəbi tərəfindən Yusibov Əli Elbrus oğluna verilmiş N 0522 seriyalı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19